

## Qərib Mehdi

(əvvəli ötən sayımızda)

# Mənim adım Müslümdür

(xatirə-hekayə)

*Müslüm əminin təhəri pozulur, komissarla köhnə toqquşması yadına düşür:*

*– Məni çağıran Məmmədhüseynovdur?*

*– Hə, odur. Hörmətli adama oxşayır.*



*– Siz də hörmətli adam tapdınız dəg Getməyəcəyəm.*

*Ertəsi gün direktor işçisinə təkrar ağız açmalı olur:*

*– Polkovnik yenə zəng eləmişdi. Məhz sizinlə görüşmək istəyir. Yəqin vacib sözü var. Danışığının tonundan duydum ki, xoşməramlı söhbət olacaq. Bəlkə, muştuluq da aldınız. Görüşməyinizi məsləhət bilərdim. Əslində, bu dəvətdən, çağırışdan məmnun olmalısınız. Bəzən zabitin də sıravi əsgərə işi düşür. Dünyadır də...*

Sürücü onu saymayan, haqlı xahişinə soyuqqanlı yanaşan polkovniki qaba hərəkətinə görə bağışlaya bilmirdi. Bu dəfə də görüş barədə razılıq alınmır. Görünür, polkovniki də iradəsinə qarşı dura bilməyən bir qüvvə idarə edir. Üçüncü zəngdən sonra sürücü inadından əl çəkir.

Onlar hərbi komissarlıqda görüşürlər. Müslüm əmi qarşısındakı vəzifə, hökm sahibinin davranışına, yumşaq jestlərinə mat qalır. Komissar sürücünün keyfini soruşur, işlərinin gedişilə maraqlanır. Bu gəzişmələrdən sonra mətləbə keçir:

– Müslüm kişi, səndə qiymətli bir sənəd, əmanət varmı?

Hələ bir şey kəsdirə bilməyən sürücü cavab verir:

– Var.

Polkovnik gülümsünərək əlini həmkarının çiyninə qoyur:

– Sabah saat 2-də bizdə ol. Ancaq sənədi götürməyi unutma.

Müslüm əmi təəccüblənir:

– Xeyir ola?

– Sabah biləcəksən.

Ertəsi gün Müslüm əmi əlindəki kiçik bağlama ilə dəvət olunan ünvana varid olur. Onu polkovnikin özü qarşılayır. Sağ tərəfində ayaq üstə duran xanımının da parlaq gözlərindən sevinc çağlayır. Sol tərəfində də yolda gördüyü ucaboylu, şıq geyimli həmin cavan oğlan. Sən demə, zövcəsi itiyi tapmaq üçün ərinə «tapşırıq» veribmiş. Tapşırıq yerinə yetirildiyi üçün hamı şad görünür. Uğurlu əməliyyatın şərəfinə zəngin stol açılmışdı. Ev yiyəsi masa arxasında oturmaq üçün təklifdə bulunur.

Hələ bağlama açılmamışdı. Səbirsizlik yüngüllük olardı. Hərə öz təamını qarşısına çəkir. Üç qədəhə konyak süzülür. Evin xanımı qədəh həmrəyliyindən azaddır. Polkovnik ilk sağlığı həmyerlisi sandığı Müslüm əminin şərəfinə içməyi təklif edir. Qədəhlər toqquşmaqla deyilənləri təsdiqləyir. Yalnız iki qədəh – polkovnikin və qaynının qədəhləri boşalır. Müslüm əmi, ümumiyyətlə, içkidən yan duran adam idi. Süfrə arxasında oturmağın buna dəxli yox idi. Ev sahibi ötənləri – mənimlə bağlı toqquşmanı da xatırlayır. Qonağı haqqında olduqca xoş sözlər söyləyir. Toqquşmanın da xeyri olduğunu bildirir:

– Sən demə, çəkişməyimiz bərkiməyimizə qulluq edirmiş.

Polkovnik sonra qaynı – Lomonosov adına Moskva Dövlət Universitetinin məzunu, parlaq gələcəyi olan cavan oğlanın sağlığını dilə gətirir. Və onun gələcək uğurlarında itmiş diplomu tapan və onu həssaslıqla qoruyub saxlayan sürücünün əvəzolunmaz xidmətlərini xatırladır:

– Səni evimə çağırdım ki, itiyi təqdim edəsən, əvəzində mən də səni mükafatlandıracağam.

Məsələ bəlli. Dəmir qapının taxta qapıya işi düşdüyü aydınlaşır. Bu sözlərdən sonra Müslüm əmi bağlamanı ehtiyatla açır, tapdığı diplomu və onun içində olan 10 dənə şax yüzlüyü ev sahibinə təqdim edir.

Sən demə, Məmmədhüseynov da əvvəlcədən cavab tədbiri hazırlayıbmış. O, diplomu götürüb sahibinə verir. 10 dənə şaxlı yüzlüyü və əlavə olaraq özünün konvertə qoyduğu şəxsi mükafatını qonağına təqdim edir və ürəkdən dillənir:

***– Sən itiyi sahibinə qaytardın. Bunu ancaq sənin kimi mərd, gözütox adam eləyər. Mükafatları götür, halalındır!***

***Müslüm əmi süfrə arxasında oturanları nəzərdən keçirib, mükafatları geri – sahibinə qaytarır və çoxçalarlı məna ilə deyir:***

***– Polkovnik, mənim adım Müslümdür!.. Mənə mükafat lazım deyil. Mən insani borcumu yerinə yetirmişəm. Qaldı dayım oğlunun məsələsi. Yetim yaza çıxdı, qışın pisliyi özünə qaldı. Üstümü unlu görüb məni dəyirmançı sanma. Biz də azdan-çoxdan bu dünyanın işlərindən bir şey bilirik. Sözümü balabanda deyirəm: Qəribin nə işi var Kamçatkada?.. Kamçatkanı kamçatkalılar qoruyacaq.***

***Deyilən sözlər polkovniki tutur və o da öz mərdanə gedişini edir:***

***– Müslüm kişi, bundan sonra mənim evimin də, idarəmin də qapısı sənin üzünə açıq olacaq.***

Türkiyə, İstanbul şəhəri. Maarif Göytürkün və Amalya Məmmədovanın ailəvi – uşaqlı, nəvəli şəkilləri



Tarzən Firuddun Ələkbərov



Xanəndə Əlibaba Məmmədov



Kamancaçı Habil Əliyev

### Görüm, ay bəy...

Hər sınaqlı hal yetimi daha tez yaxalayır. İllah da ki, sevgig Sevgi, əzabı çəkənlərin qəlbində yuva qurmağa üstünlük verir. Sevgi yaşına çatmışdım. Fikirləşirdim ki, ailənin sayını 2-likdən xilas edib 3-lüyə qaldırmaq qarşısıalınmaz bir hissdir. Gəlin də gəlsə, arzulanan 3-lük reallaşar. Və sonra uşaqlar ard-arda gəlib durna qatarına bənzəyər. Bu hiss arzudan toxunan bəzəkli köynəkdir. Xoş arzunun alt qatında maddi ehtiyac, ev-eşik qayğıları çətin keçilən sədd kimi dayanır. Sevgi isə daha iradəlidir. O, səni çətinlikləri dəf etməyə məcbur edir. Qəbul etməsən, vay halınag Onu da bil ki, sevgi zəifləri əsir götürməyi sevir.

Bu hiss məni axşam məktəbində (gündüz fəhləlik edirdim) yaxaladı. Sinif yoldaşım Şəfiqə xanıma vuruldum. Sevginin də öz «xəbərlər agentliyi» var. Bu agentlik az vaxt içində sirrimi hər yana bəyan elədi. Əvvəlcə anam bildi: oğlu sevir, ailə qurmaq istəyir. Hansı maddi imkanla? Bu sual məyusluq yaratsa da, anamın gözləri işıq saçırdı. Ümidli ana idi. oğlunu bu qərardan çəkindirmədi. Əksinə, göydə Allaha, yerdə yeznəsinə – bacısının əri Müslüm kişiyə sığındı: «Allah yaratdığını darda qoymaz».

İşləyirdim, əlimə bir az sərmayə gəlmişdi. Ancaq bu qənimət, bu yığım evlənməyə bəs etməzdi. Məyuslanıb dəryada gəmimin batmağına imkan vermirdim. Bilirdim ki, Müslüm əmi dayısı oğlunu darda qoymayacaqdı.

Sevgi Fərhada dağ yardırdı, mənə də gəlin otağı tikdirdi. Artıq arzu qatarı maneələri aşa-aşa yoluna davam edirdi. Elçi də gedildi, «hə» də alındı, toy tədarükünə də başlandı. Dürüstləşdirilməmiş bir məsələ həllini gözləyirdi. Toy dəvətnaməsinə kimin imzası qoyulacaqdı? Atam Qasım kişi çoxdan dünyasını dəyişib. Anam Dürsədəfin adını yazmaq da münasib deyil. Öz toyumun həm bəyi, həm də ağsaqqalı özümmü olmalıydım? Bu, gerçəkləşsə, qərarım istehza doğurar və belə başıpozuq toya gələnlərin sayı kəskin azalar, çəkilən xərc özünü doğrultmaz. Müslüm əmi bu vəziyyətin həllinə də hazır idi:

– Mən dayım oğlunu oğlanlarımdan seçmirəm. Dəvətnamə mənim adımdan yazılacaq.

Müslüm kişinin bir günlüyə «əmilikdən» endirib «ata» tituluna yiyələnməsini qəbul edəsi oldum. Hər şey yoluna qoyuldumu? Sən demə, yox. Toyu sadəcə, bir dınqıltı ilə yola vermək olardı.

Birdən Müslüm əmi yetimin toyu ilə bağlı gözlənilməz bir addım atdı. O, qardaşlarını başına yığıb məsləhət gecəsi də keçirdi və niyyətini onlara açdı:

***– Gəlin dayımız oğluna yaddaqalan bir toy vurduraq. Şəhərə afişalar vurulub. Məşhur xanəndələr, xalq artistləri Əlibaba Məmmədov, mahir kamança ustası Habil Əliyev və Əməkdar artist, tarzən Firudin Ələkbərovdan ibarət üçlük Gəncəyə qastrol səfərinə gəliblər. Habilin prokuror qayınatası ilə dostluğum var. Bunu Habil bilir. Sözümü yerə salmazlar. Mən onlarla danışıb dəstəni Qəribin toyuna gətirərəm. Qoy yetimin toyu tarixə düşsün. Nə deyirsiniz?***

Məsuliyyətli təklif idi. Ancaq qardaşlar razılığa gələ bildilər. Bir həftədən sonra (1958-ci il noyabrın 15-16-sında) toy mağarı quruldu, çalğıçılar dəstinin şöhrəti öz işini görmüşdü. Mağarda oturmağa yer tapılmırdı. Dəvətsiz gələnlərin sayı dəvətlilərdən çox idi. Yetim Qərib bəy stolunda oturduldu. Firudinin tarı, Habilin kamançası səslənib Əlibabanın ürəyəyatımlı avazını müşayiət etməyə başladı. O, üzünü Qərib bəyə tutub toy mağarına tarixi bir imza atdı:

**Görüm, a bəy, toyun mübarək olsun,**
**Sağdışına, soldışına borc olsun!..**

### Ümid doğruldu

1967-ci ildə «Gənclik» nəşriyyatı tərəfindən ilk kitabım çıxdı. Lap anadan olan uşaq kimi balaca – cəmi bir çap vərəqi həcmində. Avtoqraflı kitab bağışlamağın sevincini yaşadım. Hekayələrdən ibarət kitabımı qardaşlara da bağışladım. Böyük qardaş yaradıcılığımda olan yeniliyə reaksiya vermədi. Kiçik qardaşa yazdığım avtoqrafda bu sözlər xanımının yadından çıxmırdı: «mənəvi cəhətdən borclu olduğum...». Qadın tamahıg O, «mənəvi borc» sözlərini maddi borc mənasında anlamışdı. Və mənə tez-tez xatırladırdı: «Cavan oğlan, borcunu nə vaxt qaytaracaqsan? Bax özün əlinlə yazmısan ha...».

Müslüm əmi kitabıma qəribə bir baxışla nəzər yetirdi və soruşdu:

– Kitabın adı nədir?

Dedim:

– «İşıq».

Gülümsünüb xeyir-duasını verdi:

– Yolun işıqlı olsun, bala! Zənnimdə yanılmamışam. Deyirdim axı, səndən bir şey olacaq...

### Son

***Əziz xalam oğlu Maarif Göytürk, sən məsafəcə uzaq, könülcə yaxın Türkiyənin İstanbul şəhərində yaşayırsan, mən isə Azərbaycanda. Arada xeyli məsafə olsa da, bu yazı bizi əl-ələ tutduracaq. Mən sənin arzunu yerinə yetirdim. Elə özüm də vəfa borcumdan çıxdım. Daha başlıcası, atan Müslüm kişinin də ruhu şad oldu.***